*Azərbaycan Respublikası Hesablama Palatası Kollegiyasının "18" iyun 2009-cu il tarixli "Q-41" nömrəli Qərarı ilə təsdiq edilmişdir*

# Hesablama Palatasının funksiyalarının həyata keçirilməsi ilə əlaqədar dövlət hakimiyyəti orqanlarının nümayəndələrinin auditor təşkilatlarının, müstəqil auditorların, ekspertlərin və ayrı-ayrı mütəxəssislərin cəlb edilməsi

# QAYDALARI

## I. Ümumi müddəalar

1.1. "Azərbaycan Respublikası Hesablama Palatasının funksiyalarının həyata keçirilməsi ilə əlaqədar dövlət hakimiyyəti orqanlarının nümayəndələrinin, auditor təşkilatlarının, müstəqil auditorların, ekspertlərin və ayrı-ayrı mütəxəssislərin cəlb edilməsi Qaydaları" (bundan sonra – Qaydalar) Azərbaycan Respublikasının 2002-ci il 5 mart tarixli 269-II Q nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Hesablama Palatasının Daxili Nizamnaməsi"nin tələblərinə əsasən, "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununa və digər qanunvericilik aktlarına, Hesablama Palatasının normativ-metodiki sənədlərinə və INTOSAI (Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatı) tərəfindən tövsiyə edilmiş standartların ümumi prinsiplərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Bu Qaydaların məqsədi Hesablama Palatasının funksiyalarının həyata keçirilməsi ilə əlaqədar dövlət hakimiyyəti orqanlarının nümayəndələrinin (bundan sonra - nümayəndələr), auditor təşkilatlarının, müstəqil auditorların, ekspertlərin və ayrı-ayrı mütəxəssislərin (bundan sonra - ekspert-mütəxəssis) cəlb edilməsi prosedurlarını, onların qarşısında qoyulan tələbləri və işin nəticələrinin rəsmiləşdirilməsi qaydalarını müəyyən etməkdir.

## II. Nümayəndə və ekspert-mütəxəssislərin cəlb edilməsinin təşkili

2.1. Nümayəndə və ekspert-mütəxəssislərin cəlb edilməsi Palatanın növbəti il üzrə İş planının tərtibi zamanı nəzərdə tutulduqda, müvafiq fəaliyyət istiqamətinə rəhbərlik edən Auditor tərəfindən onların cəlb edilməsi barədə müvafiq təklif verilir.

2.2. Auditor öz təkliflərində nümayəndə və ekspert-mütəxəssislərin Palatanın müvafiq tədbirlərinə cəlb edilməsinin zəruriliyini əsaslandırır, onlar tərəfindən yerinə yetiriləcək işlərin həcmini və icra müddətlərini müəyyənləşdirir, cəlb ediləcək hüquqi və fiziki şəxslər barədə təklifini verir.

2.3. Nümayəndə və ekspert-mütəxəssislərin iştirakına Palata tərəfindən nəzarət tədbirinin keçirilməsi zamanı ehtiyac yarandıqda, aidiyyəti Auditor tərəfindən bu barədə müvafiq qaydada Palata Sədrinə müraciət edilir. Palata Sədrinin müvafiq tapşırığına əsasən Auditor nümayəndə və ekspert-mütəxəssislərin cəlb edilməsini dövlət hakimiyyəti orqanı, auditor təşkilatı və ya ekspert-mütəxəssislər ilə müvafiq qaydada razılaşdırır.

2.4. Hesablama Palatasına daxil olan sorğu və tapşırığın icrası üçün nümayəndə və ekspert-mütəxəssislərin iştirakı tələb olunduqda Auditor tərəfindən 2.3-cü bəndə uyğun fəaliyyət həyata keçirilir.

2.5. Nümayəndə və ekspert-mütəxəssislər Palatanın nəzarət tədbirlərinə cəlb edildikdə həmin icraçılar, yerinə yetiriləcək işlərin həcmi, iştirak formaları və müddətləri müvafiq qaydada nəzarət tədbirinin proqramında nəzərə alınır.

2.6. Nümayəndə və ekspert-mütəxəssislərin iştirakının təmin olunmasının Kollegiya tərəfindən təsdiqi Palatanın müvafiq normativ sənədinə uyğun həyata keçirilir.

## III. Nümayəndələrin və ekspert-mütəxəssislərin qarşısında qoyulan tələblər

3.1. Nümayəndə və ekspert-mütəxəssislər nəzarət tədbirinin həyata keçirilməsi üçün təcrübəli, peşəkar və xüsusi səriştəyə malik olmalıdırlar.

3.2. Nümayəndə və ekspert-mütəxəssislər tədbirin nəticələrində maraqlı olmamalı və əldə etdikləri məlumatları digər məqsədlər üçün istifadə etməməlidirlər.

3.3. Palatanın müvafiq normativ-metodiki sənədləri ilə nəzarət tədbirini həyata keçirən yoxlama qrupuna qoyulan tələblərə cəlb edilən nümayəndə və ekspert-mütəxəssislər yoxlama dövründə qrup üzvü kimi riayət etməlidirlər.

## IV. Nümayəndə və ekspert-mütəxəssislərin cəlb edilməsi

4.1. Nümayəndələr, ekspertlər və mütəxəssislər dövlət hakimiyyəti orqanlarından Palatanın funksiyalarının həyata keçirilməsi ilə əlaqədar tədbirlərə ödənişsiz əsaslarla cəlb edilirlər

4.2. Digər hüquqi və fiziki şəxslərdən ekspert-mütəxəssislərin tədbirlərin keçirilməsinə cəlb edilməsi qarşılıqlı razılaşma əsasında həyata keçirilir. Ödənişli əsaslarla cəlb edilmə zamanı Palata ilə onlar arasında müvafiq qaydada mülki müqavilə bağlanılır və mövcud qanunvericiliyə əsasən tərəflərin öhdəlikləri müəyyənləşdirilir.

4.3. Nümayəndə və ekspert-mütəxəssislər nəzarət tədbirini keçirən qrupun tərkibində və ya Palatanın tapşırığı ilə sərbəst fəaliyyət göstərə bilərlər.

4.4. Hesablama Palatası nümayəndə və ekspert-mütəxəssislərin işindən dövlət büdcəsi, büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələri və digər dövlət maliyyə vəsaitlərinin hərəkəti (istifadəsi) barədə müstəqil, obyektiv, dürüst və qərəzsiz audit sübutları əldə etmək üçün istifadə edir.

4.5. Palatanın tədbirlərində nümayəndə və ekspert-mütəxəssislərin iştirakını təmin etmək üçün Palatanın aidiyyəti normativ-metodik sənədlərinin tələblərinə uyğun olaraq müvafiq sərəncam və vəsiqə tərtib edilir.

## V. Nümayəndə və ekspert-mütəxəssislərin işinin nəticələrinin rəsmiləşdirilməsi

5.1. Nümayəndə və ekspert-mütəxəssislərin işinin nəticələri Palatanın müvafiq normativ-metodik sənədlərinin tələblərinə uyğun akt, arayış, rəy və ya hesabat (bundan sonra-sənəd) formasında ayrıca yaxud ümumi aktda öz əksini tapmaqla rəsmiləşdirilə bilər.

5.2. Nümayəndə və ekspert-mütəxəssislərin işinin yerinə yetirilməsi səviyyəsi:

– tərtib edilən sənədin müqavilədə qoyulan tələblərə uyğunluğu;

– sənəddə göstərilən sübutların yoxlanılan qurumun məsul işçilərinin nümayəndə və ekspert-mütəxəssislərə təqdim etdiyi məlumat, mühasibat (maliyyə) hesabatı və digər təsdiqedici sənədlər ilə uyğunluğu;

– cəlb edilən şəxslərin istifadə etdiyi qiymətləndirmə metodlarının qüvvədə olan qanunvericilik aktlarının müddəalarına uyğunluğu;

– cəlb edilən şəxsin mövqeyinin aydınlığı;

– işin nəticəsinə görə təqdim edilmiş sənədin tamlığı və əhatəliliyi;

– sənədin vaxtında təqdim edilməsi ilə müəyyənləşdirilir.

5.3. Başa çatmış işlər tərəflər arasında tərtib edilən təhvil-qəbul aktı ilə rəsmiləşdirilir və ödəniş üçün əsas kimi qəbul edilir. Başa çatmış işlər işin xarakterindən asılı olaraq nəzarət tədbirləri üzrə yoxlama qrupunun rəhbəri və ya

Auditor, Palatanın Aparatı üçün görülmüş işlər üzrə isə Aparatın rəhbəri tərəfindən qəbul edilir.

5.4. Ekspert-mütəxəssisin əməyinin ödənilməsi "Ekspertiza işlərinə cəlb edilən ştatdankənar ekspertlərin əməyinin ödənilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 16 iyun tarixli 99 nömrəli Qərarı ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

5.5. Bağlanmış müqavilələrin qeydiyyata alınması Hesablama Palatası Aparatının müvafiq struktur bölməsi tərəfindən həyata keçirilir.

## VI. Məsuliyyət

6.1 Cəlb edilmiş nümayəndə və ekspert-mütəxəssislər gördükləri işlərin nəticələrinə görə qanunvericilikdə nəzərdə tutulan qaydada məsuliyyət daşıyırlar.